“SABAH LIVE” adlanan müsabiqə həvəskar videoçarxlar vasitəsilə “Bakı 2015” 1-ci Avropa Oyunları ərəfəsində “SABAH-ın könüllüsü”nün fəaliyyətinin və könüllülərinin yaradıcılığının nümayiş olunması məqsədi ilə təşkil olunur.

SABAH qruplarının Facebook sosial şəbəkəsindəki rəsmi səhifəsi vasitəsilə reallaşdırılacaq müsabiqənin qalibi 2 mərhələli seçimlərlə müəyyən olunacaq. Birinci mərhələdə könüllülər tərəfindən hazırlanmış “SABAH-ın könüllüsü”nün “Bakı 2015” 1-ci Avropa Oyunlarına dəstəyini ifadə edən video-çarxlar rəsmi səhifədə yerləşdiriləcək. Münsiflər heyəti ən çox bəyənilən və izlənilən video-çarxlar arasından qalibi müəyyənləşdirəcək.

Müsabiqədə SABAH qruplarının fəaliyyət göstərdiyi 7 ali təhsil müəssisəsinin tələbəsi olan və “SABAH-ın könüllüsü” proqramında qeydiyyatdan keçmiş bütün könüllülər iştirak edə bilər. Müsabiqənin qalibləri “Bakı 2015” 1-ci Avropa Oyunlarının açılış mərasiminə bilet əldə edəcək və qiymətli hədiyyə ilə mükafatlandırılacaq.

Müsabiqəyə qoşulmaq üçün aprelin 22-dək mövzuya uyğun hazırlanmış video-çarxı onlayn köçürmə (nümunə: wetransfer.com transfer) platformaları və ya yükləmə platformaları (nümunə: boxca.az, rapidhsare.com) vasitəsi ilə konullu.sabah@edu.gov.az elektron ünvanına "Sabah Live" başlığı altında müəllifin adı, soyadı, təhsil aldığı müəssisə, ixtisası və qrupu qeyd olunmaqla göndərmək lazımdır. Videoçarxlar, həmçinin elektron informasiya daşıyıcılarında (flaşkart, disk və ya harddiskə yazılmış halda) Gənclər Evinə (Ünvanı: Bakı şəhəri, Süleyman Rüstəm küç. 15 H) təqdim oluna bilər.

Müsabiqə və onun şərtləri haqqında ətraflı məlumatı SABAH qruplarının rəsmi Facebook səhifəsindən (www.facebook.com/sabah.edu.gov.az), həmçinin konullu.sabah@edu.gov.az elektron poçt ünvanı ilə əlaqə saxlamaqla əldə etmək mümkündür.

“SABAH-ın könüllüsü” proqramı SABAH qruplarının tələbələrinin, akademik təhsildən ayrılmadan, könüllü fəaliyyətə cəlb olunmaqla, sosial aktivliyini artırmaq və alınmış biliklərin praktikada tətbiq edilməsini, eləcə də tələbələrin idarəçilik bacarıqlarının və liderlik potensialının inkişaf etdirilməsi məqsədi ilə fəaliyyət göstərir.

SABAH qrupları ali təhsilin keyfiyyətinin yüksəldilməsi, müasir tələblərə uyğun kadr hazırlığının təmin edilməsi və ali təhsil sistemində yeni mühitin yaradılması məqsədi ilə Təhsil Nazirliyinin tabeliyindəki ali təhsil müəssisələrində Savadlı, Bacarıqlı və Hazırlıqlı tələbələrdən təşkil olunub. Hazırda SABAH qrupları 7 ali təhsil müəssisəsində (Bakı Dövlət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Azərbaycan Dillər Universiteti) 34 ixtisas üzrə 755 tələbəni əhatə edir.